## “ŞƏHƏRSALMA VƏ MEMARLIQ İLİ” ÇƏRÇİVƏSİNDƏ GÖRÜLƏN İŞLƏR

| | |
|---|---|
| **22 DEKABR 2025** | Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır. |
| **27 YANVAR 2026** | Azərbaycan Memarlıq və İnşaat Universitetində “Şəhərsalma Və Memarlıq İli” çərçivəsində 2 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin şagirdləri üçün maarifləndirici ekskursiya keçirilib. Ekskursiya zamanı şagirdlər Heydər Əliyev Muzeyi, universitetin sərgi salonu və müasir laboratoriyaları ilə tanış olub, AzMİU tələbələrinin hazırladığı layihələrə baxmaq imkanı əldə edib, memarlıq, inşaat və şəhərsalma ixtisasları barədə ətraflı məlumat alıblar. |
| **28 YANVAR 2026** | Prezident İlham Əliyevin Sərəncamına əsasən, 2026-cı ilin Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan olunması ilə əlaqədar yanvarın 28-də Şəki şəhər Heydər Əliyev Mərkəzinin və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə “Azərbaycanın mədəni irsi və müasir memarlıq” mövzusunda dəyirmi masa keçirilib. |
| **30 YANVAR 2026** | bu ildə keçiriləcək tədbirlər planına XIII Ümumdünya Şəhərsalma Forumunun, "Bakı şəhərsalma həftəsi" çərçivəsində, həmçinin "Ümumdünya Məskunlaşma Günü" və "Ümumdünya Şəhərlər Günü"nün qeyd edilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında keçirilən Böyük Qayıdış çərçivəsində həyata keçirilən quruculuq işləri və abidələrin bərpasının ictimaiyyətə təqdim edilməsi, "qardaşlaşmış şəhərlər" layihəsinin Bakı və digər Azərbaycan şəhərləri üçün tətbiq edilməsi, bu ilə həsr olunmuş poçt markalarının, zərflərin və poçt kartlarının buraxılması, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Azərbaycan daşınmaz mədəni irs nümunələrinin gümüş xatirə sikkələrinin buraxılması və s. daxildir. |
| **10 FEVRAL 2026** | Naftalan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı, şəhər Heydər Əliyev Mərkəzinin |

| | |
|---|---|
| | dəstəyi ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində Naftalan ŞİH-nin Tədbirlər Planına uyğun olaraq “Azərbaycan memarlıq ənənələri-müasir çağırışlar” mövzusunda tədbir keçirilib. |
| **02 MART 2026** | Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə əlaqədar təsdiq olunmuş Tədbirlər Planına əsasən Daşkəsən Rayon İcra Hakimiyyəti, YAP Daşkəsən rayon təşkilatı, Daşkəsən rayon Heydər Əliyev Mərkəzi, Daşkəsən rayonu üzrə Təhsil Sektoru, Daşkəsən rayon Mədəniyyət Mərkəzi və Daşkəsən rayonu üzrə Gənclər və İdman Sektorunun birgə təşkilatçılığı ilə “Sonsuz Baxış” Gənclər Təşəbbüs Qrupunun üzvləri olan gənclərlə görüş keçirilib.<br>Görüşün məqsədi gənclər arasında şəhərsalma və memarlıq sahəsinə marağın artırılması, müasir urbanizasiya prosesləri, dayanıqlı inkişaf prinsipləri və milli memarlıq irsinin qorunması istiqamətində maarifləndirmə işinin gücləndirilməsi olub. |
| **04 MART 2026** | Ölkəmizin Şimal-Şərq bölgəsinin mədəni mərkəzi sayılan Qubada “Multikultural dəyərlər və dini memarlıq: Azərbaycan nümunəsi” mövzusunda tədbir keçirilib.<br>“Şəhərsalma və Memarlıq İli” çərçivəsində şəhərdəki “Cümə” məscidində düzənlənən görüş Quba Rayon İcra Hakimiyyətinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba–Xaçmaz regional bölməsinin birgə təşkilatçılığı ilə keçirilib. |
| **13 MART 2026** | “Şəhərsalma və Memarlıq İli” ilə əlaqədar paytaxtın Suraxanı rayonunda “ECOLEAD” layihəsi çərçivəsində ağacəkmə aksiyası keçirilib.<br>Aksiya zamanı Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları, habelə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyinin, Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin rəhbər heyəti və əməkdaşlarının iştirakı ilə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 200-dən çox ağac əkilib.<br>2024-cü ildə Baş Prokurorluğun təşəbbüsü əsasında icrasına başlanılan “ECOLEAD” layihəsi çərçivəsində hazırkı vaxtadək Bakı şəhərinin Suraxanı, Nəsimi, Binəqədi, Yasamal və Xətai rayonları ərazisində ümumilikdə 10 hektar ərazidə 2200-dən çox ağac əkilib. |

| | |
|---|---|
| | Hazırda Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti və Qarabağ Universiteti tərəfindən birgə həyata keçirilən ECOLEAD layihəsindən irəli gələn məqsədlərin gələcəkdə də icrası nəzərdə tutulur. |
| **17 MART 2026** | Masallı Rayon İcra Hakimiyyəti, rayon Tarix-Diyarşünaslıq Muzeyi və Mərkəzi Rayon<br><br>Kitabxanasının birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Rayonlarda şəhərsalma mədəniyyəti: tarixi yanaşma" adlı tədbir keçirilib;<br>"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Neftçalada “Gələcəyin şəhəri və tarixi binalar” mövzusunda gənclər və yeniyetmələr arasında rəsm və poster müsabiqəsi keçirilib;<br>"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Cəlilabadda müxtəlif tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri Prezidentin 15 iyul 2024-cü il tarixli sərəncamına əsasən, Gənclər və İdman Nazirliyinin sifarişi ilə "Sağlam məhəllə" layihəsi çərçivəsində şəhərin Zərifə Əliyeva küçəsində müasir idman zonasının yaradılmasıdır. Burada mini-futbol, basketbol meydançası və müxtəlif idman alətləri quraşdırılacaq. Layihə əhalinin, xüsusilə gənclərin sağlam həyat tərzinə dəstək məqsədi daşıyır və sakinlər tərəfindən böyük razılıqla qarşılanır.<br>"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Neftçala şəhərinin Bayraq meydanı, Heydər Əliyev prospekti və daha bir neçə küçəsində idarə, təşkilat və ictimaiyyət nümayəndələrinin iştirakı ilə təmizlik aksiyası keçirilib.<br>Aksiya zamanı həmçinin park və Heydər Əliyev prospektinin işıqlandırılması ilə bağlı qəzalı elektrik xətləri, işıq plafonları, elektrik tənzimləyiciləri yenisi ilə əvəz edilib, küçə işıqlandırılması ilə bağlı təmir işləri aparılacaq ərazilərdə monitorinq aparılıb. |
| **18 MART 2026** | Martın 18-də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələri şagirdlərinin ifasında “Şəhərsalma və Memarlıq İli” çərçivəsində “Dəyərlərimizi qoruyaq: keçmişdən gələcəyə yurdum mənim” tamaşası təqdim olunub. |
| **19 MART 2026** | Cəfər Cabbarlı adına Respublika Gənclər |

| | |
|---|---|
| | Kitabxanasında "Şəhərsalma və Memarlıq İli" çərçivəsində xüsusi təqvim hazırlanıb. Kitabxananın saytında (https://www.ryl.az/our-activity/sehersalma-ve-memarliq-ili-teqvimi) yerləşdirilən elektron təqvimdə ölkəmizin memarlıq inciləri haqqında məlumat və fotomateriallar yer alır. Təqvimin hazırlanmasında əsas məqsəd Azərbaycanın memarlıq irsinin tanıdılması, gənc nəslin milli-mədəni dəyərlərə marağının artırılması, həmçinin ölkəmizin qədim və müasir memarlıq nümunələrinin təbliğidir. Bu təşəbbüs vasitəsilə oxuculara Azərbaycanın memarlıq ənənələrinin tarixi inkişaf yolu və bu sahədə əldə olunan nailiyyətlər haqqında məlumat təqdim olunur. |
| **02 APREL 2026** | "Şəhərsalma və Memarlıq İli" ilə bağlı Sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək məqsədilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası tərəfindən innovativ yanaşmaya əsaslanan bir sıra layihələr reallaşdırılır. Bu kitabxanada süni intellekt texnologiyalarının tətbiqi ilə "Ağıllı irs: Azərbaycan memarlığının rəqəmsal təqdimatı" layihəsinə başlanılıb. Layihə çərçivəsində Azərbaycan memarlığının nadir nümunələri süni intellekt vasitəsilə canlandırılır, onların tarixi və estetik dəyəri geniş auditoriyaya çatdırılır, hazırlanan təqdimatlar milli memarlıq incilərimizin yeni prizmadan təqdim olunmasına imkan yaradır. |
| **6 APREL 2026** | Kitabxananın yeni layihəsi - "Ağıllı irs: Azərbaycan memarlığının rəqəmsal təqdimatı" [Mətn]: Layihəni Gənclər Kitabxanası süni intellekt vasitəsilə hazırlayıb. |
| **08 APREL 2026** | Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Nayrobi şəhərində keçirilən İkinci Afrika Şəhərsalma Forumunda (AUF2) iştirak edir. Keniya Hökumətinin ev sahibliyi və Afrika İttifaqının dəstəyi ilə keçirilən Forum 10 aprel tarixinədək davam edəcək. Builki Forum "Hər kəs üçün layiqli mənzil: Gündəlik 2063-ün həyata keçirilməsi istiqamətində sosial-iqtisadi və ekoloji transformasiyanın təşviqi" mövzusuna həsr olunub. Tədbir şəhərsalma və şəhərlərin davamlı inkişafı sahəsində regionun əsas müzakirə platformalarından biri hesab olunur. |

| | |
|---|---|
| | Nümayəndə heyətinin Forum çərçivəsində yüksək səviyyəli görüşlərdə və sessiyalarda iştirakı planlaşdırılır. Forumun gündəliyinə uyğun olaraq ölkəmizin nümayəndə heyətinin rəhbəri Anar Quliyev BMT-nin Məskunlaşma Proqramı Assambleyasının “Hər kəs üçün münasib mənzil” qətnaməsi üzrə 2025–2026-cı illər üçün Hökumətlərarası İşçi Qrupun həmsədri qismində məruzə ilə çıxış edəcək. Keniyaya səfər çərçivəsində Komitə sədri digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və beynəlxalq təşkilatların nümayəndələri ilə bir sıra işgüzar görüşlər keçirəcək. Bu görüşlər zamanı aktual məsələlərlə yanaşı, Bakı şəhərində cari ilin 17-22 may tarixlərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) hazırlıq barədə də məlumat veriləcək. Eyni zamanda, Afrika regionunun media nümayəndələri üçün ayrıca brifinq və tədbirin keçirildiyi məkanda WUF13-ün sərgi guşəsi təşkil olunacaq. |
| **29 APREL 2026** | Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib. |
| **9 MAY 2026** | “Naxçıvan – memar Əcəmi irsi” gümüş sikkəsi təqdim olundu. |
| **11–17 MAY 2026** | Ümumdünya Şəhərsalma Forumu öncəsi şəhər sakinlərini və qonaqları müasir planlaşdırma yanaşmaları ilə tanış edən "Baku Urban Week" (Bakı Şəhərsalma Həftəsi) təşkil olunmuşdur. |
| **12 MAY 2026** | Mayın 12-də Şuşada “Milli irs və şəhərsalma” mövzusunda xüsusi tədbir və qədim memarlıq abidələrini əks etdirən sərgilər nümayiş etdirilmişdir. Mayın 19-da isə Azərbaycan Milli Kitabxanasında il çərçivəsində elmi-mədəni toplantı reallaşdırılmışdır. |
| **17–22 MAY 2026** | Bakıda BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) tərəfdaşlığı ilə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) keçirilmişdir; 176 ölkədən 57 min nəfərdən çox iştirakçının qatıldığı bu tədbirdə qlobal mənzil böhranı müzakirə olunmuş və "Bakı Fəaliyyətə Çağırış" sənədi qəbul edilmişdir. |
| **1 İYUN 2026** | "Şəhərsalma və Memarlıq ili" çərçivəsində "1 İyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günü" |

| | |
|---|---|
| | münasibətilə Xətai rayonu, Heydər Əliyev adına istirahət parkının amfiteatr səhnəsində rayon İcra Hakimiyyəti, Ailə, Qadın, Uşaq problemləri üzrə Dövlət Komitəsi, YAP Xətai rayon təşkilatı, Bakı şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə konsert proqramı təşkil olunub. |
| **4 İYUL 2026** | Altıncı “Yüksəliş” müsabiqəsinin yarımfinal mərhələsinə start verib. |